

Günel MEHRİ

# Qadın

Qadın aldanılmaq üçün doğulub, əzizim! Bütün balaca qızlar bir gün aldanılmaq üçün böyüyən real namizədlərdir. Valideynləri onları əzizləyə-əzizləyə böyüdürlər ki, bir dəfə sevgililəri, 100 kərə ərləri aldatsın. Bəlkə, etiraz edəsiz, hə? Ay əzizlərim! Nənələr, analar, xalalar, bacılar! Hansınız aldanılmamısınız, hansınız alçaldılmamısınız ki?

Hm... Susursuz!.. Çünki ən gözəllər də, ən varlılar, məşhurlar da, lap elə əsilzadələr, şahzadələr də xəyanətə uğrayıb. Kiminsə təbəssümünə satılıb. Kiminsə ətrinə görə atılıb. Lazımsız əşya kimi bir küncdə unudulub. Bir gecəlik "kəpənəy"ə, ya nazəndə katibəyə, ya da qonşu qızına görə tərk edilib... Bəlkə, ildə-ayda bir kərə, bəlkə də, illərlə... Qüruruna sığınıb, bilməzdən gəlib, görməzdən gəlib, bəlkə, özünü illərlə karlığa, korluğa vurub... Amma qadınsa əgər, əmin olun! Mayasında olan qadın instinkti ilə duyub ki, aldadılıb... Ya, bəlkə, görməzdən də gəlməyib, susmayıb heç. Ağlayıb, fəryad edib, üsyan qaldırıb. Nə fayda? Nə fayda ki, onsuz da aldadılıb, onlu da aldadılıb!..

Qadın üçün sübut olunmuş bir həqiqət var: Tomris ol, Hürrəm Sultan ol, Şahzadə Diana ol, ya da adi bir xadimə! Fərq eləməz ki. Bir gün mütləq sən də xəyanət qapısının kandarından boylanacaqsan. Qorxa-qorxa, ağrıyla, acıyla baxacaqsan həqiqətin gözünə. İlk əvvəl çaşacaqsan, nə edəcəyini bilməyəcək qədər çaşacaqsan. Sonra da gücsüzlüyünün fərqinə varıb, yavaş-yavaş əyiləcəksən həqiqətin qarşısında, hər gün bir zərrə, bir parça daha çox paralanıb sınacaqsan. Güzgüyə baxanda saçlarının dəni, üzünün qırışları deyil, sınmış əksin görünəcək gözünə. Gəlinlik ayaqqabısında taqqıltıyla paraladığın boşqabtək sınıq-salxaq olacaq qadınlığın, qürurun, mənliyin, arzuların...

Və təzə tanış olduğun həqiqət şeytan olub hər gün asta-asta pıçıltıyla qulağına yeridəcək ki, aldadılmaq qadınların, aldatmaqsa kişilərin fitrətinə yazılıb! Sonra da gözlərin qarşısında aldadıldığın epizodlar açılacaq bütov bir

mozaikanın ayrı-ayrı hissələri kimi. Xoş bir baxış, ovsunlayıcı kəlmələr, təbəssümlər, iltifatlar, etiraflar, yad ünvanlara gedən hədiyyələr, çiçəklər, böcəklər... Sonra ilk öpüş həyəcanı, ilk təmas, ilk eşq gecəsi, ya gündüzü... Beynin dumanlanacaq bu təsvirlərdən... Dəhşətə gələcəksən detallara vardıqca... Axı sənlə də bunlar yaşanıb lap yaxın keçmişdə... İlk mesaj, ilk zəng, ilk opüş həyəcanı, ilk təmas, ilk gecə... Ah, bu ilklər, ilklər! Anlayırsan ki, sən illərdir bu ilkləri xatirində diri tutarkən, o, bu ilklərin üstünə, kim bilir, neçə ilk yaşayıb. Səninlə olan ilklər keçmişdir, bitmişdir onun üçün. Çünki o, yeni ilklər kəşf edir, yeni ilklərin həyəcanıyla yaşayır...

Başa düşürsən ki, yolun başındaykən, gənclik həvəsiylə dünyanı çəhrayı rəngdə görərkən “Məndə hər şey başqa cür olacaq, mən güclüyəm, özümə arxayınam” deməklə olmurmuş bu işlər. Həyat elə Mopassanın yazdığı “Həyat” romanındakı kimi amansızmış, iti bıçaq kimi kəskinmiş qurbanlarına qarşı. Əvvəlcə sığallaya-sığallaya dünyanın nağıl kimi şirin olmasına inandırıb, sonra zərbələr endirir. Sağdan-soldan, həm də ən gözləmədiyin məqamlarda... Və beləcə, balaca uşaqtək səni qarşısına alıb dərs verir. Öyrədir ki, bütün sevgilərin sonu hicrandır, ayrılıqdır, aldanışdır. Öyrədir ki, vüsalın şirinliyi kəpənək ömrü qədər cazibədar və qısa olur. Hə, bir də ən vacibi – öyrədir ki, hər qadının içində potensial xəyanətkar yatır. Özü də fil qulağında yatantək, heç vaxt oyadılmayacağını zənn edərək rahat yatır.

Qadın – qadınlığına uduzan bir məxluqdur. Nə kəşflər etsə də, dağı dağ üstə aşırsa da, qadın elə doğuluşundan qalib deyil, məğlubdur. Amma günün birində son damla da damarsa, bax o kasa daşarsa, qadın məcrasını itirər, qadınlığı qarşısında aciz qalar... Sürünmək yox, yaşamaq istəyər. Bütün xəyanətlərdən, sevgisizlikdən qaçıb ovuc boyda sevgiyə qısılmaq istər. Bu dəfə aldadılmayacağını düşünərək sevmək, sevilmək istər! Saf uşaq məsumluğuyla sevginin dibsizliyinə, sədaqətin sonsuzluğuna inanmaq, sadəcə, inanmaq istər... Ömründə ilk dəfə xəyanətə uğramış deyil, xəyanətkar olmaq istər qadın. Və həmin andan barmaqla göstərilər, qınanar, söyülər, döyülər qadın. “Baxın, baxın! Xəyanətkar gəlir! Zinakar gəlir!” deyərlər!.. Amma heç kim deməz, əsla söyləməz, hətta susar, yan keçər... Ki, baxın, yaxşı-yaxşı baxın, xəyanətə uğramış, alçalmış, aldadılmış qadın gəlir!

Hə, bir də unutmamış bunu da deyim ki, qadın elə xəyanətin sinonimidir, açılışıdır, məğzidir! Qadın – qadının ən böyük düşmənidir, əzizim! Çünki başqa qadın olmasaydı, qadın aldadılmazdı... Çünki qadın olmasaydı, xəyanət heç olmazdı...

